Xocavənd



**Yaranma tarixi – 26.11.1991**
**Ərazisi –1471,96 км²**
**Əhalinin sayı – 13416 nəfər**
***(01 yanvar 2025-ci il tarixə)***
**Əhalinin sıxlığı -1 kv.km 9,1 nəfər**
***(01 yanvar 2025-ci il tarixə)***

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

# M Ü N D Ə R İ C A T


| | |
|---|---|
| Ümumi məhsul buraxılışı | 4 |
| Sənaye | 5 |
| Tikinti | 6 |
| Kənd təsərrüfatı | 7 |
| Nəqliyyat | 9 |
| Məşğulluq və işsizlik | 10 |
| Əməkhaqqı | 11 |
| Səhiyyə | 12 |
| Təhsil | 12 |
| Mədəniyyət | 13 |
| İnzibati xətalar | 14 |
| Əmtəə bazarı | 16 |
| Demoqrafik vəziyyət | 17 |
| Yeni iş yerləri | 18 |

# Ümumi məhsul buraxılışı

2024-cü ilin yanvar-dekabr aylarında rayonda 151917,7 min manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13,2 faiz çox ümumi məhsul istehsal olunmuşdur.

Ümumi məhsul istehsalının 1,2 faizi sənaye, 0,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 76,2 faizi tikinti, 1,3 faizi Ticarət: nəqliyyat vasitələrinin təmiri, 20,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinin payına düşmüşdür.

## Ümumi məhsul istehsalı

Cədvəl 1

min manat

| | Yanvar-dekabr | | 2024-cü ilin yanvar-dekabr ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2024 | 2023*) | |
| **Ümumi Daxili Məhsul** | **151917,7** | **132091,9** | **113,2** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 31441,9 | 17737,4 | 168,8 |
| Sənaye | 1791,6 | 1041,0 | 90,7 |
| Tikinti | 115739,0 | 111310,2 | 104,0 |
| Ticarət: nəqliyyat vasitələrinin təmiri | 2031,3 | 1146,2 | 174,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 913,9 | 857,1 | 107,9 |

*) 2023-cü ilin yanvar-dekabr aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



# Sənaye

2024-cü ilin yanvar-dekabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 1791,6 min manatlıq sənaye məhsulu istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 9,3 faiz az sənaye məhsulu istehsal olunmuşdur.

Sənaye məhsulunun 87,4 faizi emal, 12,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

2025-ci ilin 01 yanvar vəziyyətinə sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 156 nəfər təşkil etmiş, işləyənlərin orta aylıq nominal əməkhaqqı 759,5 manat olmuşdur.

Cədvəl 2

## Sənaye üzrə istehsalın həcmi

min manat

| Fəaliyyət növlərinin | Malların istehsalı və xidmətlərin göstərilməsi | | |
|---|---|---|---|
| adı | 2024-cü ilin yanvar-dekabr aylarında | 2023-cü ilin yanvar-dekabr aylarında | 2024-cü ilin yanvar-dekabr aylarının 2023-cü ilin yanvar-dekabr aylarına nisbəti, faizlə |
| | 1 | 2 | |
| **Sənaye üzrə cəmi** | **1791,6** | **1041,0** | **90,7** |
| **Emal sənayesi** | **1566,4** | **804,7** | **141,9** |
| Qida məhsullarının istehsalı | 1377,0 | 587,3 | 256,8 |
| Kimya sənayesi | 189,4 | 217,4 | 84,4 |
| **Su təchizatı; tullantıların təmizlənməsi və emalı** | **225,2** | **236,3** | **89,9** |
| Suyun yığılması, təmizlənməsi və paylanması | 225,2 | 236,3 | 89,9 |

## Tikinti

### Əsas kapitala yönəldilmiş investisiyalar

2024-cü ilin yanvar-dekabr aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 122923,6 min manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 9,7 faiz çox investisiya yönəldilmişdir.

Yönəldilmiş investisiyanın 119320,5 min manatı və ya 97,1 faizi dövlət mülkiyyətində olan müəssisə və təşkilatların, 3603,1 min manatı və ya 2,9 faizi isə qeyri-dövlət mülkiyyətində olan müəssisə və təşkilatların payına düşmüşdür. İnvestisiyanın qoyuluşunun 115739,0 min manatı və ya 94,2 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Cədvəl 3

**Əsas kapitala yönəldilmiş vəsaitlər**

| | 2024-cü ilin yanvar-dekabr aylarında, min manat | 2023-cü ilin yanvar- dekabr aylarında, min manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **122923,6** | **112087,5** | **109,7** |
| o cümlədən: Dövlət mülkiyyətində olan müəssisə və təşkilatlar | 119320,5 | 11627,5 | 106,9 |
| Qeyri-dövlət mülkiyyətində olan müəssiə və təşkilatlar | 3603,1 | 460,0 | 783,3 |

Cədvəl 4

**2024-cü ilin yanvar-dekabr aylarında əsas kapitala yönəldilmiş investisiyalar**

| | 2024-cü ilin yanvar-dekabr aylarında | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə |
|---|---|---|
| **Əsas kapitala yönəldilmiş investisiyalar,min manat** | **122923,6** | **109,7** |
| ondan: tikinti-quraşdırma işlərinə | 115739,0 | 104,0 |

# Kənd təsərrüfatı

2024-cü ilin yanvar-dekabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 31441,9 min manat təşkil etmişdir ki, onun da 12212,5 min manatı heyvandarlıq, 19229,4 min manatı bitkiçilik məhsullarının payına düşür.

## Kənd təsərrüfatının ümumi məhsulunun strukturu

Cədvəl 5

| 2024-cü il yanvar-dekabr | o cümlədən | | 2023-ci il yanvar-dekabr | o cümlədən | | Qiymət indeksi | 2024-cü il yanvar-dekabr ayları 2023-ci ilin yanvar-dekabr aylarının qiymətlərilə | Fiziki həcm indeksi |
|---|---|---|---|---|---|---|---|---|
| | bitkiçilik | heyvandarlıq | | bitkiçilik | heyvandarlıq | | | |
| 31441,9 | 19229,4 | 12212,5 | 17737,4 | 9988,7 | 7748,7 | 105,0 | 29934,4 | 168,8 |

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 168,8 faiz artmışdır.

**Bitkiçilik.** Rayonda kənd təsərrüfatı məhsullarının yığımı başa çatmışdır. 2024-cü ildə 22567,0 hektar sahədən, hər hektardan orta hesabla 11,5 sentner olmaqla, ilkin çəkidə 25915,4 ton və ya 2023-cü illə müqayisədə 61,7 dəfə çox dənli və dənli paxlalı bitkilər toplanmışdır. Artmanın əsas səbəbi 2023-cü ildə təbii fəlakətin olması və əkin sahələrinin tələf olması olmuşdur

2024-cü ildə istehsal olunmuş dənli və dənli paxlalı bitkilərin 20820,9 tonunu və yaxud 80,3 faizini buğda təşkil etmişdir. Buğdanın məhsuldarlığı 11,0 sentner olmuşdur. Bundan əlavə, 5404,2 ton və ya 2023-cü ilə nisbətən 25,9 faiz az tərəvəz 53,5 ton (13,9 faiz az), meyvə və giləmeyvə 39,6 ton (14,8 faiz çox), kartof 104,5 ton (18,3 faiz çox) bostan məhsulları yığılmışdır.

## Bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilik məhsullarının yığımı

Cədvəl 6

| | 2024-cü il yanvar-dekabr | | | | 2023-cü il yanvar-dekabr | | |
|---|---|---|---|---|---|---|---|
| | Yığılmış sahə hektar | Yığılmış sahə əkin sahəsinə %-lə | Yığılmış məhsul ton | Məhsuldarlıq, sent/ha | Yığılmış sahə hektar | Yığılmış məhsul ton | Məhsuldarlıq, sent/ha |
| **Dənli və dənli paxlalı bitkilər-cəmi** | **22567,0** | **100,0** | **25915,4** | **11,5** | **250,0** | **340,0** | **13,6** |
| cümlədən:buğda | 18928,1 | 100,0 | 20820,9 | 11,0 | 200,0 | 280,0 | 14,0 |
| **Kartof** | **4,2** | **100,0** | **39,6** | **94,3** | **3,7** | **34,5** | **93,2** |
| **Tərəvəz** | **249,3** | **100,0** | **5404,2** | **216,8** | **363,6** | **7291,2** | **200,5** |
| **Bostan bitkiləri** | **9,3** | **100,0** | **104,5** | **112,3** | **8,1** | **88,3** | **109,0** |
| **Meyvə və giləmeyvə** | **6,7** | **100,0** | **53,5** | **79,9** | **6,7** | **62,1** | **97,1** |

**Heyvandarlıq.** 2024-cü ilin yanvar-dekabr aylarında quş əti də daxil olmaqla diri çəkidə 1442,6 ton ət, 2693,0 ton süd, 568,0 min ədəd yumurta istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 69,8 faiz çox, süd istehsalı 1,1 faiz az, yumurta istehsalı isə 3,9 faiz az olmuşdur.

**Əsas növ heyvandarlıq məhsullarının istehsalı**

Qrafik 2




2025-ci il yanvar 1-i vəziyyətinə rayon üzrə 17006,0 baş qoyun və keçi, 2287,0 baş iribuynuzlu mal-qara, o cümlədən 1370,0 baş inək və camış mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 59,9 faizini inək və camışlar təşkil edir.

**Mal-qaranın sayı,**
**yanvar 1-i vəziyyətinə, baş**

Qrafik 3



## Mal-qaranın sayı

(ayın 1-i vəziyyətinə, baş)

Cədvəl 7

| | **İribuynuzlu mal-qara** | **o cümlədən inək və camışlar** | **Qoyun və keçilər** |
|---|---|---|---|
| **2023** | | | |
| Yanvar-dekabr | 2046,0 | 995,0 | 13440,0 |
| **2024** | | | |
| Yanvar-dekabr | 2287,0 | 1370,0 | 17006,0 |

# Nəqliyyat və anbar təsərrüfatı

2024-cü ilin yanvar-dekabr aylarında nəqliyyat və anbar təsərrüfat müəssisələri tərəfindən göstərilmiş xidmətlərin həcmi 913,9 min manat və ya keçən ilin müvafiq dövri ilə müqayisədə 6,6 faiz çox olmuşdur. Muzdla işləyənlərin orta siyahı sayı 31 nəfər olmaqla, orta aylıq nominal əməkhaqqı 367,3 manat təşkil etmişdir.

**Nəqliyyat və anbar sektorunda məhsul buraxılışı** Cədvəl 8

| | 2024-cü ilin yanvar-dekabr aylarında, min manat | 2023-cü ilin yanvar- dekabr aylarında, min manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Nəqliyyat və anbar sektorunda məhsul buraxılışı** | **913,9** | **857,1** | **106,6** |

## Nəqliyyatın əsas göstəriciləri, min manat

Qrafik 4



# Məşğulluq və işsizlik

2025-ci il yanvarın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 4877,0 nəfər olmuş, onlardan 4527,0 nəfərini məşğul əhali təşkil etmişdir.

2024-cü il dekabrın 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 67 nəfər və ya 4,6 faiz azalaraq 1384 nəfər olmuş, onlardan 1287 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 97 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 39,7 faizi təhsil, 0,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,1 faizi sənaye, 19,8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 13,0 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 2,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 0,9 faizi peşə, elmi və texniki fəaliyyət, 10,3 faizi İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 0,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

### 2024-cü il dekabr ayının 1-i vəziyyətinə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə muzdla çalışan işçilərin sayı

(nəfər)

Cədvəl 9

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Rayon üzrə – cəmi** | **1384** | **1287** | **97** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 89 | 89 | 0 |
| Emal sənayesi | 54 | 0 | 54 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 29 | 29 | 0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 12 | 2 | 10 |
| Nəqliyyat və anbar təsərrüfatı | 31 | 6 | 25 |
| Peşə, elmi və texniki fəaliyyət | 12 | 12 | 0 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 180 | 180 | 0 |
| Təhsil | 550 | 550 | 0 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 274 | 274 | 0 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 143 | 143 | 0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 10 | 2 | 8 |

# Əməkhaqqı

2024-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 2,3 faiz artaraq 698,0 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 688,1 manat, özəl müəssisələrdə isə 834,5 manat olmuşdur.

**2024-cü ilin yanvar-noyabr aylarında iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı**
(manat)

Cədvəl 10

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Rayon üzrə – cəmi** | **691,5** | **683,6** | **799,9** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 468,0 | 468,0 | 0,0 |
| Emal sənayesi | 907,6 | 0,0 | 907,6 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 557,7 | 557,7 | 0,0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 1031,9 | 1371,0 | 924,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 367,3 | 446,8 | 345,0 |
| Peşə, elmi və texniki fəaliyyət | 689,8 | 689,8 | 0,0 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 998,1 | 998,1 | 0,0 |
| Təhsil | 592,5 | 592,5 | 0,0 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 755,3 | 755,3 | 0,0 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 645,8 | 645,8 | 0,0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 1212,5 | 640,0 | 1355,6 |

İqtisadiyyatın dövlət idarəetməsi və müdafiə; sosial təminat, ticarət; nəqliyyat vasitələrinin təmiri, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, əyləncə və incəsənət sahəsində fəaliyyət, peşə, elmi və texniki fəaliyyət sahələrində eləcə də digər xidmətlərin göstərilməsi sahəsində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Səhiyyə

Rayon Mərkəzi xəstəxanasında ümumilikdə 255 nəfər fəaliyyət göstərir. Xəstəxanada 31 həkim, orta tibb heyəti 101 nəfər, 123 nəfər isə digər peşələr üzrə olmaqla işçi heyəti çalışır. Səhiyyə İşçilərinin 183 nəfəri (71,8%) qadınlardır. Onların orta aylıq əməkhaqqı 754,8 manat təşkil etmişdir

Cədvəl 11

| | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| Bütün ixtisaslardan olan həkimlərin sayı, nəfər | 18 | 44 | 43 | 43 | 31 |
| Orta tibb heyətinin sayı, | 111 | 131 | 115 | 115 | 101 |
| Xəstəxana müəssisələrinin sayı | 4 | 2 | 2 | 2 | 2 |
| Xəstəxana çarpayılarının sayı | 180 | 295 | 295 | 295 | 295 |
| Əhaliyə ambulatoriya - poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 8 | 8 | 8 | 8 | 8 |

# Təhsil

Ümumtəhsil məktəblərdə 2024/2025 tədris ilində rayonda 16 dövlət gündüz ümumtəhsil müəssisəsi fəaliyyət göstərir 3- ü ibtidai, 2 -si ümumi orta, 11-i tam orta məktəb olmuşdur. Təhsil müəssisələrinin 1991 nəfər şagird təhsil alır ki, onların da 17 nəfəri (0,8%) ibtidai məktəblərin, 35 nəfəri (1,8%) ümumi orta məktəblərin, 1939 nəfər (97,4%) şagird tam orta məktəblərin payına düşür.

Cədvəl 12

| | 2018 2019 | 2019 2020 | 2020 2021 | 2021 2022 | 2022 2023 | 2023 2024 | 2024 2025 |
|---|---|---|---|---|---|---|---|
| Əyani ümumi təhsil müəssisələrinin sayı | 16 | 16 | 16 | 16 | 16 | 16 | 16 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| ümumi orta | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| tam orta | 11 | 11 | 11 | 11 | 11 | 11 | 11 |
| Əyani ümumi təhsil müəssisələrində şagirdlərin sayı, nəfər | 2026 | 2072 | 2200 | 2165 | 2153 | 2108 | 1991 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai | 24 | 27 | 24 | 32 | 31 | 25 | 17 |
| ümumi orta | 42 | 38 | 42 | 40 | 40 | 37 | 35 |
| tam orta | 1960 | 2007 | 2134 | 2093 | 2082 | 2046 | 1939 |
| Əyani ümumi təhsil müəssisələrində qızların sayı, nəfər | 894 | 933 | 977 | 959 | 970 | 943 | 910 |
| Müəllimlərin sayı, nəfər | 266 | 376 | 296 | 292 | 229 | 279 | 156 |



Ümumtəhsil müəssisələrində İnformasiya və kommunikasiya

texnologiyalarından və onlardan istifadə edilməsi haqqında məlumat aşağıdakı kimi olmuşdur.

Cədvəl 13

| | Cəmi | Ibtidai Məktələrdə | Ümumi orta məktəblərdə | Tam orta məktəblərdə |
|---|---|---|---|---|
| Kompüterləri olan məktəblərin sayı-cəmi | 16 | 3 | 2 | 11 |
| Onlardan İnternetə çıxışı olanlar | 5 | - | - | 5 |
| Kompüterlərin sayı | 97 | 3 | 2 | 92 |
| İnternetə qoşulan kompüterlərin sayı | 26 | - | - | 26 |
| Müəssisələrdə internetdən istifadə etmiş şagirdlərin ümumi sayı | 230 | - | - | 230 |
| Lokal şəbəkənin mövcudluğu | 3 | 3 | 2 | 3 |
| Elektron poçtun mövcudluğu | 16 | 3 | 2 | 11 |
| Kompüter siniflərinin sayı | 23 | - | - | 23 |

Rayonun ümumtəhsil məktəblərində 550 nəfər çalışır və onlardan da 419 nəfərini və ya 76,2 faizi qadınlar təşkil edir. Müəllimlərin sayı (məktəb rəhbərlərindən başqa) 156 nəfər olmuşdur. Rayonun ümumtəhsil məktəblərində çalışan işçilərin orta aylıq əməkhaqqı 595,6 manat təşkil etmişdir.

## Mədəniyyət

Rayon əhalisinə 1 klub və mədəniyyət evləri, 5 kitabxana xidmət göstərir. Mədəniyyət və Turizim şöbəsi işçilərinin sayı 143 nəfər olmaqla orta aylıq əməkhaqqı 641,4 manat təşkil etmişdir. İşçilərinin 94 nəfəri (65,7%) qadınlardır.

Cədvəl 14

| | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| Kütləvi kitabxanaların sayı, | 5 | 5 | 5 | 5 | 5 |
| Onlardan kitab fondu ,min nüsxə ilə | 46,1 | 47,1 | 46,6 | 46,6 | 42,7 |
| Əhalinin hər 1000 nəfərinə | 1058 | 1063 | 1058 | 1058 | 1058 |
| Klub müəssisələrinin sayı | 15 | 1 | 1 | 1 | 1 |

**İnzibati xətalar üzrə** 2024-cü ildə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan əlaqədar orqanlar tərəfindən 1365 inzibati xəta aşkar edilmişdir ki, bu da 2023-cü ilə nisbətən 55,3 faiz çox olmuşdur. Barəsində inzibati xətalar haqqında işlər üzrə qərar çıxarılmış şəxslərin sayı 1365 nəfər təşkil etmişdir. Onlardan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə 7 nəfər, işçinin məzuniyyət hüquqlarının pozulmasına, işçiyə əmək məzuniyyətinin verilməməsinə, habelə istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən edilmiş kompensasiyanın ödənilməməsinə görə 1 nəfər, bu məcəllənin 198.2-ci maddəsində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına görə 2 nəfər, qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakına, satış məqsədi olmadan az miqdarda hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə 5nəfər, tərkibində narkotik maddələr olan yabanı bitkilərin məhv edilməsi üzrə tədbirlər görülməməsinə görə 5 nəfər, bu Məcəllənin 299, 305, 306.4, 318 və 322.0.4-cü maddələrində nəzərdə tutulan yerlər istisna olmaqla, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə tütün çəkməyə görə 1 nəfər, xırda talama, yəni oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgəsinin əmlakını talamağa görə 2 nəfər, məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə 4 nəfər, müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusların müəyyən edilmiş hərəkət cədvəlinə və ya hərəkət sxeminə riayət olunmamasına, o cümlədən müntəzəm şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə daşımalar zamanı başlanğıc, aralıq və son təyinat məntəqəsinin avtovağzaldan (avtostansiyadan) kənarda olmasına görə 349 nəfər, yol nişanlarının və ya yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsinə, yaxud nəqliyyat vasitəsinin yolların hərəkət hissələrində yerləşdirilməsi, yaxud araməsafəsi, yedəyə alma, yük daşıma, sürmə təlimi keçmə, yaşayış zonasında hərəkət etmə, əks istiqamətli hərəkət zolağına çıxmadan ötmə və ya manevr etmə qaydalarının pozulmasına, səkilərlə və “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmamış hallarda yolun çiyni ilə hərəkət edilməsinə görə 349 nəfər, təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsini idarə etməyə görə 75 nəfər, nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxsin nəqliyyat vasitəsində olması halları istisna olmaqla, nəqliyyat vasitəsinin etibarnamə olmadan idarə edilməsinə görə 90 nəfər, Nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini idarə etmək üçün idarəetmə hüququ olmayan şəxsə verilməsinə görə 18 nəfər, piyada svetoforunun və ya nizamlayıcının işarələrinə riayət edilməməsinə görə 45 nəfər, nəqliyyat vasitəsini qapıları bağlanmamış vəziyyətdə yerindən tərpətməyə və ya onun hərəkəti zamanı qapıları açmağa görə 239 nəfər, yol-nəqliyyat hadisələri nəticəsində və ya nəqliyyat vasitəsinin nasazlığı səbəbindən zədələnmiş nəqliyyat vasitələrinin daşınması üçün və ya təbii fəlakət yerlərinə getmək üçün, yaxud qanunla nəzərdə tutulmuş digər təxirəsalınmaz



hallarda yükdaşıyan nəqliyyat vasitələrinin müvafiq icra hakimiyyəti

orqanlarının əməkdaşlarına təqdim edilməməsinə görə 1 nəfər, nəqliyyat vasitəsinin istifadəçisi tərəfindən nəqliyyat vasitəsi ilə ödənişli parklanma yerinə daxil olduqdan sonra xüsusi proqram təminatı və ya SMS vasitəsilə parklanma müddətinin başladılmamasına, nəqliyyat vasitəsinin parklanmasına görə müəyyən edilmiş ödəniş edilmədən və ya ödəniş edilmiş müddətdən artıq parklanma yerindən istifadə üçün əlavə ödəniş edilmədən parklanma yerinin tərk edilməsinə görə 49 nəfər, nəqliyyat vasitələri ilə təhlükəli yüklərin daşınması qaydalarının pozulmasına görə 8 nəfər, magistral boru kəmərlərinin mühafizəsi qaydalarının pozulmasına görə 8 nəfər, qanunsuz küçə ticarəti, yəni müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməmiş yerlərdə malların satılmasına və ya işlərin (xidmətlərin) görülməsinə görə 1 nəfər, xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə 36 nəfər, ictimai işlər növündə cəzanın və ya inzibati tənbehin həyata keçiriləcəyi yerlərinin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı vaxtında müvafiq icra hakimiyyəti orqanına göndərilməməsinə, yaxud ictimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı sorğulara vaxtında cavab verilməməsinə görə 1 nəfər, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların və bu Məcəllənin 353.1, 353.2, 353.4 və ya 353.5-ci maddələrində nəzərdə tutulan inzibati xətaların törədilməsinə görə inzibati cərimə istisna olmaqla, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarının qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra edilməməsinə görə 21 nəfər, polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə 44 nəfər, müvafiq icra hakimiyyəti orqanından xüsusi icazə almış şəxslər tərəfindən mülki silahın və ya onun üçün döyüş sursatının saxlanılması, daşınması və ya satılması qaydalarının pozulmasına görə 4 nəfər olmaqla inzibati xəta qeydə alınmışdır. Hesabat dövründə barəsində inzibati tənbeh tətbiq edilmiş 1363 nəfərdən cərimə olunanlar 1294 nəfər, xüsusi hüququ məhdudlaşdırılan şəxslərin sayı 6 nəfər olmuşdur. Cərimə edilən 1294 nəfərdən ümumilikdə 55153,0 manat məbləğində cərimə ödənilmişdir.

# Əmtəə bazarı

2024-cü ilin yanvar-dekabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 6347,8 min manatlıq, o cümlədən 565,7 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 5782,1 min manatlıq qeyri-ərzaq malları satılmışdır. 2023-cü ilin yanvar-dekabr ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 77,2 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 92,9 faiz, qeyri-ərzaq malları üzrə 75,8 faiz artmışdır.

## Pərakəndə ticarət dövriyyəsinin həcmi

Cədvəl 15

| | 2024-cü ilin yanvar- dekabr ayları, min manat | 2023-cü ilin yanvar- dekabr ayları, min manat | 2024-cü ilin yanvar- dekabr ayları 2023-cü ilin yanvar- dekabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarətdövriyyəsi** | **6347,8** | **3582,0** | **177,2** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütünməmulatları | 565,7 | 293,2 | 192,9 |
| qeyri-ərzaq malları | 5782,1 | 3288,8 | 175,8 |

2024-cü ilin yanvar-dekabr aylarında istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 8,9 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 91,1 faizi isə qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

# Demoqrafik vəziyyət

Qrafik 33

Rayon əhalisinin sayı ilin əvvəlindən 7 nəfər və ya 0,05 faiz artaraq 2025-ci il yanvar ayının 1-i vəziyyətinə 13416 nəfər təşkil etmişdir. Əhalinin ümumi sayının 29,7 faizini şəhər, 70,3 faizini kənd sakinləri, 50,8 faizini kişilər, 49,2 faizini isə qadınlar təşkil edir.

**Əhalinin təbii hərəkətinin əsas göstəriciləri**

Cədvəl 16

| | Yanvar-dekabr ayları üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə[1)] | | |
| | 2024 | 2023 | artım (+) azalma (-) | 2024 | 2023 | 2024-ci il 2023-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 29 | 184 | -155 | 2,2 | 13,7 | 16,1 |
| doğulanlar | 84 | 244 | -160 | 6,3 | 12,2 | 51,6 |
| ölənlər | 55 | 60 | -5 | 4,1 | 4,5 | 91,1 |
| Nikahlar | 29 | 23 | +6 | 2,2 | 1,7 | 129,4 |
| Boşanmalar | 9 | 19 | -10 | 0,7 | 1,4 | 50,0 |

1) Əmsallar il üçün hesablanmışdır

Cari ilin yanvar-dekabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 84 doğulan körpə qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 12,2-dən 6,3-ə düşmüşdür.

2025-ci ilin yanvarın 1-i vəziyyətinə rayonda 55 ölüm halı qeydə alınmış və 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 4,5-dən 4,1-ə düşmüşdür.



Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2024-cü ilin yanvar-dekabr aylarında 29 nikah və 9 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı artaraq 1,7-dən 2,2-ə qalxmış, boşanmaların sayı isə 1,4-dən 0,7-ə qədər azalmışdır.

**Yeni iş yerləri üzrə-** 2025-ci ilin 01 yanvar vəziyyətinə rayonda 139 yeni iş yeri açılmışdır. O cümlədən; mövcud hüquqi şəxslərdə 80 yeni açılmış iş yerləri, fiziki şəxslərdə isə 59 yeni iş yeri açılmışdır.

**Hüquqi şəxslərdə və digər tədbirlər üzrə yeni açılmış iş yerlərinin sayı**

Cədvəl 17

| | Sətrin №-si | Cari ilin hesabat rübündə (vahid) | İlin əvvəlindən (vahid) |
|---|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı | 01 | 70 | 139 |
| **o cümlədən:** | | | |
| Mövcud hüquqi şəxslərdə | 03 | 50 | 80 |
| Fiziki şəxslərdə | 05 | 20 | 59 |

**Xocavənd Rayon Statistika İdarəsinin rəisi** **Fərnad Tahirov**

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2024-cü ilin yanvar-dekabr aylarında 29 nikah və 9 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı artaraq 1,7-dən 2,2-ə qalxmış, boşanmaların sayı isə 1,4-dən 0,7-ə qədər azalmışdır.

**Yeni iş yerləri üzrə-** 2025-ci ilin 01 yanvar vəziyyətinə rayonda 139 yeni iş yeri açılmışdır. O cümlədən; mövcud hüquqi şəxslərdə 80 yeni açılmış iş yerləri, fiziki şəxslərdə isə 59 yeni iş yeri açılmışdır.

**Hüquqi şəxslərdə və digər tədbirlər üzrə yeni açılmış iş yerlərinin sayı**

Cədvəl 17

| | Sətrin №-si | Cari ilin hesabat rübündə (vahid) | İlin əvvəlindən (vahid) |
|---|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı | 01 | 70 | 139 |
| **o cümlədən:** | | | |
| Mövcud hüquqi şəxslərdə | 03 | 50 | 80 |
| Fiziki şəxslərdə | 05 | 20 | 59 |

**Xocavənd Rayon Statistika İdarəsinin rəisi** **Fərnad Tahirov**